# İŞĞALDAN AZAD OLUNMUŞ TORPAQLARIMIZDA AQRAR STRUKTURUN İNKİŞAF ETDİRİLMƏSİ

**Sevda Abdulbaqiyeva*, Atif Zamanov, İradə İbrahimova**

*Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Əkinçilik Elmi Tədqiqat İnstitutu, abdulbagiyevas@gmail.com*

Torpaqlarımızın azad edilməsi kənd təsərrüfatının inkişafına müsbət təsir göstərəcək, ölkənin əkin dövriyyəsi artacaq, strateji əhəmiyyətli su anbarlarının yerləşdiyi ərazilərin işğaldan azad edilməsi nəticəsində yüz min hektarlarla sahənin suvarılması reallaşacaqdır.

İşğaldan azad olunmuş torpaqlarımızda kənd təsərrüfatının bərpası üçün geniş, əhatəli tədbirlər planı hazırlanmışdır ki, bura ilk növbədə həmin ərazidəki torpaqların bərpa olunması, meliorasiya, irriqasiya sistemlərinin quraşdırılması və kənd təsərrüfatına yararlı hala gətirilməsi aiddir. Torpaqların işğaldan azad olunmasından sonra 155 min hektarlıq əkin dövriyyəsi bizim ümumi kənd təsərrüfatı dövriyyəsinə cəlb olunacaq və bərpa olunandan sonra əkin dövriyyəsi ümumi ölkənin əkin dövriyyəsinin 7-8 faizi qədər olacaqdır.

Dünya əhalisinin sayının və ərzağa olan tələbatın artdığı, qlobal iqlim dəyişiklikləri, dünyada baş verən hadisələr ərzaq təhlükəsizliyinin təmin olunmasında müəyyən problemlər yaradır ki, bu səbəbdən ərzaq təhlükəsizliyinin təmin edilməsi və məhsul bolluğunun yaradılması üçün kənd təsərrüfatının bütün ehtiyat mənbələrindən düzgün istifadə olunması tələb olunur. Buğda bitkisi (*Triticum* L.) dünya əhalisinin 35%-dən çoxunun əsas qida məhsulu olduğundan onun məhsuldarlığının artırılması seleksiyanın əsas məqsədlərindən biridir.

Ölkədə ərzaq təhlükəsizliyinin təmin edilməsində buğda bitkisinin xüsusi yer tutduğunu nəzərə alaraq, yeni intensiv, abiotik və biotik amillərə davamlı və bölgələrin ekoloji amillərinə cavab verən buğda sortlarının seçilməsi və tətbiqi ilə taxılçılıqda məhsuldarlığın və onun iqtisadi səmərəliliyinin artırılması aktual məsələlərdəndir.

Ölkənin ərzaq təminatının yerli istehsal hesabına yaxşılaşdırılması bütün dövrlərdə dövlətin iqtisadi siyasətinin ən mühüm prioritet istiqamətini təşkil etmişdir. Əhalinin ərzaq məhsullarına olan tələbatının ödənilməsi üçün yüksək məhsuldar və keyfiyyətli buğda sortlarının yaradılması istiqamətində aparılan tədqiqatlar uzun bir dövrü əhatə edir. Məhsuldarlığın artırılmasında digər aqrousullar arasında sortun payına 20-28% düşür, ekstremal hava şəraitində isə (sərt qış, quraqlıq, xəstəliklərin epifitotiyası) sort həlledici rol oynayır. Kənd təsərrüfatının inkişaf etdiyi müasir dövrdə dənli bitkilərin becərilməsində yeni texnologiyaların tətbiq edildiyi zaman da sort öz əhəmiyyətini saxlayır. Sort kənd təsərrüfatında əvəz olunmayan bioloji sistem kimi çıxış edir və payızlıq buğdanın dayanaqlı dən istehsalının əsas amillərindən biridir.

Təcrübədən də məlumdur ki, eyni becərmə şəraitində müxtəlif sortların potensial məhsldarlıqları fərqli olur. Bioloji cəhətdən fərqli sortlar təbii fonda potensial məhsldarlıqlarını müxtəlif cür realizə edirlər. Buna görə də müxtəlif ekoloji adaptasiya qabiliyyətinə malik sortların istehsalata tətbiqi vacibdir.

İşğaldan azad edilmiş bölgələrdə taxıl istehsalını artırmaq üçün son illərdə Əkinçilik Elmi Tədqiqat İnstitutunda yaradılmış və Azərbaycan Respublikasının seleksiya nailiyyətlərinin dövlət reestrinə daxil edilmiş Qırmızı gül 1, Xəzri, Cümhuriyyət 100 sortlarının o bölgələrdə becərilməsini məqsədəuyğun hesab edirik. Bu sortlar yüksək məhsuldarlığı və keyfiyyəti ilə yanaşı tipik payızlıq sortlardır və azad edilmiş bölgələrdə (Araz qırağı ərazilər istisna olmaqla) qışın və yazın uzun sürməsi bu sortların həmin bölgələr üçün perspektivini daha da artırır.

Qırmızı gül 1 sortu (növmüxtəlifliyi - *erytrospermum* ) dünya genofondundan, Xəzri sortu (*erytrospermum*) Avropa mənşəli Avrekadan, Cümhuriyyət 100 sortu (*lütessens*) beynəlxalq mərkəz-

lərdən introduksiya olunmuş pitomniklərdən boylarının qısa və bərabər paylanmasına və arxitektonikasına görə fərqlənən, yerli şəraitinə uyğunlaşan genotiplərdən fərdi seçmə yolu ilə alınmışdır.

Bu sortlar qısaboylu olub gövdəsi möhkəm, yatmaya davamlıdır, dənində zülalın miqdarı 14,8-15,3%, kleykovinanın miqdarı isə 28,0-32,0%-dir, tədqiqat illərində sarı və qonur pas, sürmə xəstəliklərinə tutulması müşahidə olunmamış, potensial məhsuldarlıqları təmin olunmuş dəmyədə 5,0-6,0 t/ha, suvarma şəraitində isə 7,0-8,0 t/ha-dır.

Qeyd edilən bölgələrdə bu tip sortlardan istifadə edilməsi yüksək keyfiyyətli dən məhsulunun alınmasına, taxıl istehsalının artırılmasına əhəmiyyətli bir töhfə ola bilər.